# Əsas vəzifə iqtisadiyyatı şaxələndirmək, uzunmüddətli inkişaf üçün daha da güclü zəmin yaratmaqdır

**İqtisadi qüdrət siyasi müstəqilliyin əsasıdır. Bunun üçün artıq Azərbaycanın möhkəm iqtisadi bünövrə kimi enerji, ərzaq və nəqliyyat təhlükəsizliyi təmin edilmişdir. İqtisadiyyatın şaxəliliyinə nail olunması və daim inkişaf etdirilməsi sahəsində də davamlı tədbirlər görülür. Əldə olunan nəticələr sübut edib ki, Azərbaycanın düşünülmüş siyasətlə, konkret iqtisadi proqramlarla fəaliyyət göstərməsi hazırki şəraitdə ən doğru yoldur. Məhz bu səbəbdən Azərbaycan regionda ən qüdrətli dövlətdir və beynəlxalq investisiyaların yönəldilməsi üçün ən cəlbedici ölkə səviyyəsini qazanmaqla yanaşı, özü güclü sərmayədar ölkəyə çevrilməkdədir.**

Azərbaycanın beynəlxalq istisadisiyasi əlaqələri getdikcə genişlənir, qarşılıqlı səmərə, dünya iqtisadiyyatına öz milli mənafeyini qorumaqla inteqrasiya, geosiyasi məkanın üstünlüklərindən bacarıqla istifadə etmək daim ölkəyə çox böyük siyasi və iqtisadi dividendlər gətirir. Müasir qloballaşma prosesi daim irəlini görməyi, elmi və texnoloji tərəqqiyə nail omaqla iqtisadiyyatı dayanıqlı, sabit inkişaf etdirməyi tələb edir. Ölkəmiz məhz bu istiqamətdə gedir. Dövlət qüdrətli sənayeyə malik olmaq üçün bütün zəruri addımları atır. Hazırda bu istiqamətdə mühüm göstəricilərə nail olunub. Son 11 il ərzində ümumi daxili məhsul 3,4 dəfə, sənaye istehsalı isə 2,7 dəfə artmışdır. Azərbaycan iqtisadiyyatı artıq dünyada güclülər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyev 2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində müasir dünyada yaşanan böhrana baxmayaraq ölkəmizdə inkişafın ötən ildə də qorunduğunu, bunun da səbəbinin xalqın dövlətin yürütdüyü siyasətin dəstəklənməsi olduğu barədə demişdir: “Bir il ərzində dünyada müxtəlif hadisələr baş vermişdir, müxtəlif proseslər getmişdir. Dünyada gərginlik artır, həm Yaxın Şərqdə, həm Avropada qanlı toqquşmalar baş verir, müharibələr davam edir. Bir sözlə, dünyada siyasi böhran davam edir, maliyyə və iqtisadi böhranın yeni mərhələsi başlamışdır. Azərbaycanda isə keçən il ərzində bütün işlər müsbət istiqamətdə getmişdir.

Azərbaycan inamla irəliyə gedir, dayanıqlı inkişaf təmin edilmişdir. Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır. Çünki Azərbaycanda xalqla iqtidar arasında birlik var, bizim təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bizim atılan bütün addımlarımız Azərbaycanın inkişafına xidmət edir. Ölkəmizdə ictimai, siyasi vəziyyət sabitdir, iqtisadiyyata böyük həcmdə investisiyalar qoyulur və iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atılır”.

İqtisadiyyatın dayanıqlılığını təmin etmək və dünya bazarlarında möhkəm və nüfuzlu mövqeyə malik olmaq üçün müasir tələbləri ödəyən müxtəlif çeşidli sənaye sahələrinin yaradılmasına və dinamik inkişafına ciddi diqqət yetirilir. Hazırda istehsalın ən yeni texnologiyalarla təşkili dünya standartlarına uyğun məhsul istehsalına imkan verib. Nəticədə ümumi daxili məhsullara dünya bazarında tələbat daim artır. Bu tərəqqinin əsl səbəbi isə ölkənin bütün regionlarında böyük quruculuq və abadlıq işləri görülməsi, beynəlxalq səviyyəli yerli sənaye və emal müəssisələri yaradılmasıdır. Dövlətin apardığı məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatda çoxşaxəlilik daim inkişaf edir. İcra mexanizmi olduqca dəqiq və elmi-praktik baxımdan əsaslandırıldığına görə nəticələr çox uğurludur.

Azərbaycan iqtisadi modelində aparıcı keyfiyyət odur ki, yerli potensial hərtərəfli öyrənilir və dünya bazarının tələbi dəyərləndirilir, beynəlxalq standartlara uyğun məhsul istehsal olunur. Dünya bazarında gedən proseslərin inkişaf meyilləri, onun mahiyyəti, ölkənin iqtisadi potensialı, sənaye sahələrinə təklifi daim nəzərə alınır. Sosial-iqtisadi tərəqqi, təbii ki, geniş beynəlxalq iqtisadi əməkdaşlıq zəminində baş verir. Bu əlaqələr iqtisadiyyatın nə qədər çox sahələrini əhatə etsə, dövlət o qədər də güclü olur. Azərbaycan rəhbərliyi bu mövqedən çıxış edərək diqqəti ölkədə müasir, rəqabətədavamlı iqtisadiyyatın yaradılmasına yönəldib. Ölkədə xarici tərəfdaşlarla iqtisadi dövriyyənin dinamikası daim öyrənilir, potensial imkanlardan səmərəli istifadə olunmasına çalışılır. Bu proses davamlı və səmərəlidir. Çünki, dövlətlərarası ticari əlaqələrin çoxşaxəliliyi həmin ölkələrin də sosial-iqtisadi inkişafına təsir edən mühüm amillərdəndir. 2015-ci ilin yanvar-aprel aylarında Azərbaycan rezidentləri dünyanın 126 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişlər. 80 ölkəyə əmtəə ixrac olunmuş, 113 ölkədən idxal olunmuşdur. Dörd ayda xarici ölkələrlə 7673,4 milyon ABŞ dolları həcmində ticarət, o cümlədən 4270,3 milyon dollarlıq ixrac və 3403,1 milyon dollarlıq idxal əməliyyatları aparılmışdır. Bu prosesdə 867,2 milyon dollarlıq müsbət saldo yaranmışdır. 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 15,4 faiz artmışdır. Qeyri-neft məhsullarının 596,5 milyon dollar dəyərində ixracı ötənilki müvafiq ayların səviyyəsindən 34,9 faiz çox olmuşdur.

Beləliklə, dünya iqtisadiyyatına inteqrasiyada ümummilli məqsəd və mənafelər ön mövqedədir. Buna görə də öz müstəqilliyini bərpa etmiş Azərbaycan iqtisadiyyatını qısa müddətdə dirçəltmiş, davamlı inkişafa nail olmuş, beynəlxalq maliyyə və iqtisadi böhrandan zərər çəkməmiş, əksinə geniş, davamlı inkişaf yoluna çıxmışdır. Ölkədə müasir istehsala nail olunması rəqabətədavamlı iqtisadiyyata səbəb olmuşdur. Beləliklə, iqtisadiyyata davamlı innovativ yanaşma müasir hərtərəfli inkişafın təməlini təşkil etməkdədir. Mövcud potensialın aşkara çıxarılaraq dövriyyəyə cəlb edilməsi dövlətin iqtisadi qüdrətinin davamlı surətdə artırılması üçün də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda həmin məsələ daim diqqət mərkəzindədir. Çünki bu proses həm də əhalinin məşğulluğunun artırılmasında və yoxsulluğun aradan qaldırılmasında həlledici rol oynamaqdadır. Əldə olunan böyük uğurlar mövcud siyasi iradə, gələcəyin elmi-praktiki əsaslarla, doğru proqnozlaşdırılması, perspektivin aydın təsəvvür edilməsi, reallığa əsaslanmaq siyasəti, düzgün qərarlar qəbul edərək maneələrin vaxtında aradan qaldırılması nəticəsində qazanılıb. Dövlət başçısı dinamik iqtisadi inkişafın əsas hədəfi barədə deyib: “Bu gün qarşımızda duran əsas vəzifələr, əlbəttə ki, neft-qaz sektoru ilə bağlı deyil. Əsas vəzifələr iqtisadiyyatı şaxələndirmək, neft amilindən asılılığı daha da azaltmaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, hələ icra edilməmiş böyük infrastuktur layihələrini icra etmək və beləliklə, uzunmüddətli inkişaf üçün daha da güclü zəmin yaratmaqdır”.

**Ataş CƏBRAYILOV,**
**“Respublika”.**